# “Bakı prosesi” sülhsevər qüvvələrin mötəbər tribunasıdır

**Bəzi ekspertlər Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan belə tədbirlər haqqında danışarkən qeyd edirlər ki, rəsmi Bakı bu forumları regionda və dünyada öz mövqeyini daha da yaxşılaşdırmaq məqsədi ilə təşkil edir. Doğrudur, həmin arqumentdə də müəyyən qədər həqiqət var. Əsl həqiqət isə ondadır ki, Azərbaycan bu addımları ilə həm də regionda və dünyada sülhün, anlaşmanın, mehriban qonşuluq və əməkdaşlıq münasibətlərinin, əmin- amanlığın bərpa edilməsinə öz töhfələrini verir. Bu isə Heydər Əliyev siyasi kursunun mühüm tərkib hissələrindən biridir.**

Ulu öndər Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışarkən, dönə-dönə vurğulayırdı ki, istənilən münaqişə, müharibə və qarşıdurma bölgənin digər ölkələrinin iqtisadiyyatına da mənfi təsir göstərir. Ona görə də Azərbaycanın çoxsaylı beynəlxalq tədbirlərə, xüsusən, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun yaradılmasına və ya möhkəmləndirilməsinə xidmət edən forumlara evsahibliyi etməsi hamı tərəfindən yüksək qiymətləndirilir və bu tədbirlərin iştirakçıları ildən-ilə artır.

Prezident İlham Əliyevin forumun açılışında söylədiyi “Azərbaycanda əsrlər boyunca müxtəlif dinlərin, etnik qrupların nümayəndələri birgə yaşayıb, ölkəmizdə daim dini tolerantlıq hökm sürüb”, “Multikulturalizm Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir” – ifadələri Azərbaycan həqiqətlərinin dilə gətirilməsi baxımından dəyərli idisə, onun “Dünyada multikulturalizmin tendensiya halını alması beynəlxalq səviyyədə sülhə, tərəfdaşlığa vacib töhfə olardı” çağırışı beynəlxalq aləmdəki vəziyyətdən narahatlıq ifadəsi idi.

Yaxud, UNESCO-nun Baş direktorunun müavini Nada Al-Naşifin “Dünyada multikulturalizmin təbliğində və bəşəri dəyərlərin bərqərar olmasında Prezident İlham Əliyevin və Azərbaycanın xüsusi rolu var” və Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoninin “Azərbaycan mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biridir” kimi fikirləri isə ölkəmizin bu istiqamətdəki fəaliyyətinə verilən qiymət idi.

Yeri gəlmişkən, əvvəlki forumlar kimi, bu beynəlxalq tədbirin hazırlanması və keçirilməsi də Azərbaycan Prezidentinin daim diqqət mərkəzində olub. Məhz həmin diqqətin nəticəsidir ki, forumdan iki həftə əvvəl – aprelin 23-də V Dünya Mədəniyyətlərarası Dialoq Forumunun Bakı şəhərində keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinə daxil olan dövlət qurumları nümayəndələrinin iştirakı ilə iclas keçirilmişdi.

Bakı Konqres Mərkəzində keçirilən iclasda Təşkilat Komitəsinin sədri, mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək demişdi ki, dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının öz tədbirlərini Azərbaycanda keçirməsi müstəqil dövlətimizin nüfuzundan xəbər verir. Tədbirdə qeyd edilmişdi ki, Dünya Mədəniyyətlərarası Dialoq Forumunun coğrafiyası çox genişlənib, tədbirə qoşulan qurumların sayı xeyli artıb. Budəfəki forumda Latın Amerikası ölkələrindən tutmuş Səudiyyə Ərəbistanı, Kolumbiya, Böyük Britaniya, Peruya kimi dövlətlərin təmsilçiləri də iştirak edəcəklər. Eləcə də bildirilmişdi ki, tədbir BMT-nin televiziyası və rəsmi internet səhifəsi üzərindən canlı yayımlanacaq.



*Əslində, 2011-ci ildə ilk dəfə mədəniyyətlərarası dialoq forumunun təşkil edilməsi ideyası tariximiz, reallığımız və həmçinin belə məsələlərin müzakirəsi üçün geniş formatın yaradılması arzumuzdan qaynaqlanırdı. Bu gün buna əvvəlkindən daha çox ehtiyac var. Təəssüf olsun ki, bu gün dünyada narahatlıq doğuran bəzi tendensiyalar mədəniyyətlərarası dialoqla deyil, özgələşmə ilə nəticələnir. Biz mütəmadi surətdə bunun şahidi oluruq. Dünyanın müxtəlif yerlərində münaqişə, qarşıdurma və vətəndaş müharibələrinin səbəbi müxtəlif din və etnik qrup nümayəndələrinin arasında anlaşmanın olmamasıdır.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Haqq-ədalət tərəfdarları Bakıda zorakılığa və ayrı-seçkiliyə “Yox!” dedilər

Budur, artıq beynəlxalq aləmdəki zorakılığa, ayrı-seçkiliyə, yadlaşmaya qarşı mübarizə aparan ictimai-siyasi xadimlər, görkəmli ziyalılar, haqq-ədalət tərəfdarları artıq Azərbaycan paytaxtındadırlar. “Ayrı-seçkilik, qeyri-bərabərlik və zoraki münaqişələrə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak ediblər. Qeyd edilib ki, Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak edirlər.

Xüsusilə vurğulanıb ki, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu öyrənilir. Forum üç istiqamətdə davam edəcək.

Açılış mərasimində geniş nitq söyləyən Prezident İlham Əliyev vurğulayıb ki, respublikamızda multikulturalizm dövlət siyasətinin mühüm tərkib hissəsidir. Qeyd edilib ki, 2016-cı il Azərbaycanda multikulturalizm, 2017-ci il isə “İslam Həmrəyliyi ili” elan edilmişdi. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycanın müstəqillik baxımından gənc olmasına baxmayaraq, sürətlə inkişaf etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev dövlət siyasətinin dünya ölkələri ilə əməkdaşlığın və tərəfdaşlığın genişləndirilməsinə yönəldiyini vurğulayıb.

Həm ölkə daxilində, həm də xaricdə keçirilən bütün beynəlxalq tədbirlərdə olduğu kimi, bu forumda da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Prezident bildirib ki, bu münaqişənin yaratdığı problemlərə baxmayaraq, Azərbaycan sürətlə inkişaf edir.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Angel Moratinosun, UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşifin, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymin, Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoninin, İSESCO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin çıxışlarında da Bakı forumlarının əhəmiyyəti ilə yanaşı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq birliyin ədalətsiz mövqe tutduğu, bunun yolverilməz olduğu vurğulanıb.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Angel Moratinosu qəbul edib. BMT rəsmisi həmin görüşdə də ölkəmiz və dövlət başçımız barədə maraqlı fikirlər səsləndirib. Qonaq qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə ilk dəfə 2007-ci ildə – ATƏT-in fəaliyyətdə olan sədri işləyərkən görüşüb və həmin söhbət zamanı Azərbaycanın dövlət başçısının söylədiyi fikirləri bu gün də xatırlayır.

Forumun təşkilinə görə Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirən Migel Angel Moratinos Bakının dünyada dialoq mərkəzi kimi tanındığını, “Bakı prosesi”nin önəmli bir platformaya çevrildiyini və zamanında irəli sürülmüş təşəbbüs olduğunu vurğulayıb. Qonaq bildirib ki, bu prosesin coğrafiyasının genişləndirilməsi və Azərbaycanın multikulturalizm ənənələrinin təşviqi böyük əhəmiyyət daşıyır.

**İttifaq MİRZƏBƏYLİ,**
**“Xalq qəzeti”**